Forum çərçivəsində keçirilən görüşlərdə digər ölkələrin nümayəndələrinə Azərbaycan Təhsil Şəbəkəsinin (AZEDUNET) və Məlumat və Resurs Mərkəzinin yaradılması, “Elektron məktəb” və “Bir şagird– Bir kompüter” layihələri, həmçinin Milli Tədris Portalı da daxil olmaqla Dövlət Proqramının müxtəlif komponentləri haqqında məlumatlar verilib.

“ITU World Telecom 2009” çərçivəsində Azərbaycan təhsil sisteminin informasiyalaşdırıması haqqında iki sənədli film və “Elektron Təhsil” jurnalının ingilis dilində olan xüsusi buraxılışı təqdim olunub. Forumda Azərbaycanın Milli Stendində informasiya texnologiyalarının tətbiqi sahəsində ölkənin qabaqcıl təcrübəsi təqdim olunub.